# Azərbaycan iqtisadi və siyasi əməkdaşlıqda strateji rola malikdir

***Ölkəmiz Avrasiya məkanında transmilli layihələrin reallaşdırılmasında lider dövlətdir, həm də təhlükəsizliyin qarantı, inteqrasiyanın, səmərəli beynəlxalq əməkdaşlığın təminatçısıdır***

**Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələrində hərtərəfli və dinamik inkişaf geniş beynəlxalq əməkdaşlığa güclü zəmin yaradıb. Ölkədə iqtisadi və siyasi islahatların bir-birini tamamlamaqla və milli mənafelərin qorunması ilə aparılması, müasirliyi çoxşaxəli inkişafa imkan vermişdir. Nəticədə son on bir il ərzində iqtisadiyyat və sənaye göstəriciləri üç dəfədən çox artmış, Azərbaycanda iqtisadi inkişaf dünyada sürətli, yüksək templi olmuşdur.**

Bu tərəqqidə digər dövlətlərlə əməkdaşlıqda milli maraqların təmini xüsusi rol oynayır. Hər bir dövlət beynəlxalq iqtisadi, ticari əlaqələrini genişləndirməkdə maraqlıdır. Əməkdaşlıqda isə düşünülmüş iqtisadi siyasət və milli mənafelərin təminində əsas təməl prinsiplərindəndir. Bu gün Azərbaycanın yürütdüyü xarici siyasət şəffafdır, açıqdır, səmimidir, qarşılıqlı etimada əsaslanır və ölkənin milli mənafelərinin qorunmasına hesablanıb. Tərəfdaşın da maraqlarının nəzərə alınması, qarşılıqlı olaraq mənafelərin təmininə xidmət dünyada sülhün, sabitliyin qorunmasına və sosial-iqtisadi inkişafa öz töhfəsini verir. Azərbaycanın iqtisadi əməkdaşlıq üçün güclü potensialı mövcuddur. Əlaqələr də məhz bu prinsiplər üzərində qurulur və iqtisadi mənafelər bu münasibətlərdə ən mühüm amillərdəndir.

Hər bir beynəlxalq mahiyyətli layihə sosial-iqtisadi inkişafa xidmət etməklə bərabər, həmin region dövlətlərinin də siyasi bağlantılarının güclənməsinə və strateji tərəfdaşlığına səbəb olur. Ona görə də Azərbaycan rəhbərliyi regional əməkdaşlığın güclənməsində öz səyini əsirgəmir, düşünülmüş siyasi xətlə, konkret proqramlarla fəliyyət göstərir, bu istiqamətdəki bütün potensialı səfərbərliyə alır.

Dövlət başçısı İlham Əliyev Fransa prezidenti Fransua Ollandın 2014-cü ildə Azərbaycana rəsmi səfəri zaman mətbuata bəyanatında Avropanın siyasi və iqtisadi güclərindən olan, inkişaf etmiş bu ölkə ilə əlaqələrin yeni yüksək mərhələyə qalxdığı barədə deyib: "Siyasi əlaqələrimiz yüksək səviyyədədir... Bizim aramızda iqtisadi sahədə çox uğurlu əməkdaşlıq aparılır. Bu gün keçiriləcək biznes forumda sənədlər imzalanacaqdır. Ticarət dövriyyəsi 2 milyard dollara yaxınlaşır. Azərbaycanda 50-dən artıq Fransa şirkəti fəaliyyət göstərir. İmzalanacaq kontraktların həcmi də təxminən 2-2,5 milyard dollar səviyyəsindədir. Əminəm ki, səfərdən sonra bu istiqamətdə yeni layihələr icra ediləcəkdir. Nəqliyyat, telekommunikasiya, informasiya texnologiyaları, turizm, inşaat və digər sahələrdə gözəl perspektivlər və imkanlar vardır".

Avropa dövlətləri və təsisatları ilə Azərbaycan arasında əlaqələr çox uğurla inkişaf edir, böyük perspektivə malikdir. Azərbaycan öz müstəqilliyini 23 ildir ki, bərpa edib. Bütün bu illər Azərbaycan ilə Avropa dövlətləri və təsisatları arasında fəal əməkdaşlıq dövrü olub. Hazırda bu əlaqələr uğurla davam etdirilərək daha yüksək mərhələsinə qalxır və tərəfdaşlığın yeni formasına çevrilir. Dövlət başçısının dediyindən də görünür ki, regional miqyaslı bir sıra məsələlər – siyasi, iqtisadi əməkdaşlıq daim yeni çalarla zənginləşir və təkmilləşir. Enerji təhlükəsizliyi bu gün artıq dövlətlərin milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsinə çevrilib, bu baxımdan da regional təhlükəsizlik mühüm əhəmiyyətə malikdir, dövlət rəhbərliyi riskləri önləmək üçün həmin istiqamətdə effektiv siyasət yürüdür, lazımi addımları atır və bu məsələ ilə əlaqədar operativ, dinamik iş aparır. Düşünülmüş və proqramlaşdırılmış siyasət sayəsində Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi ötən dövr ərzində Avropa İttifaqı ölkələri ilə yaxşı əlaqələri mövcud olub. Bu münasibətlər çox möhkəm qarşılıqlı maraqlara, hörmətə və dostluğa əsaslanıb.

Azərbaycandan ixrac olunan karbohidrogen ehtiyatları Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayıb və bu istiqamətdə əməkdaşlıq özünün daha yüksək mərhələsinə qədəm qoyub. Ölkəmiz regionda enerji layihələrinin əsas təşəbbüskarıdır və enerji təhlükəsizliyi sahəsində bütün təşəbbüslər Avropa təsisatları tərəfindən dəstəklənir. Dövlət bu böyük məsuliyyəti öz üzərinə götürüb və öhdəsindən də bacarıqla gəlir. Təsadüfi deyil ki, Xəzərin karbohidrogen ehtiyatlarının Avropa və dünya bazarlarına nəqlini təmin edən dəhlizin açılması da məhz Azərbaycanın güclü siyasi iradəsi sayəsində mümkün olmuşdur. Dövlət neftdən gələn gəlirləri düşünülmüş siyasətlə, müvafiq proqram və icra mexanizmi ilə qeyri-neft sektoruna yönəltməklə, iqtisadiyyatı şaxələndirməyi və innovativ dinamik inkişafı təmin etməyi bacarmışdır. Hazırda beynəlxalq meridianlarda davamlı inkişaf edən, daxildə siyasi sabitlik mövcud olan, dünya iqtisadi sisteminə müvəffəqiyyətlə qarşılıqlı mənafelərə əsasən inteqrasiya edən dövlətlə əməkdaşlıq üçün hər bir ölkə cəlbedicidir. Fransa prezidenti iqtisadiyyatın şaxələndirilməsinə və innovativ dinamik inkişafa nail olmuş Azərbaycanla əlaqələrin mahiyyəti və əhəmiyyəti barədə bəyanatında deyib: "Cənab Prezident, mən mühüm siyasi məsələləri müzakirə etmək, təxirəsalınmaz mövzular haqqında danışmaq, o cümlədən tərəfdaşlığımızın yeni istiqamətlərini müəyyən etmək üçün bu səfərə gəlmişəm. Əslində, istər Azərbaycan, istərsə də Fransanın maraqlarına gəldikdə, biz uzun perspektivli planlara malikik. Beləliklə, həmin planları məzmunlu etmək üçün strategiya üzərində, onun təfsilatları üzərində düşünürük. Bu işləri biz Azərbaycan üçün görürük və ölkədəki dəyişiklərin şahidiyik. Onların miqyası böyükdür. Enerji sahəsinə sərmayələrin cəlb edilməsi istiqamətində gördüyünüz işlər təqdirəlayiqdir. Eyni zamanda, nəqliyyat, tikinti, infrastruktur, yeyinti məhsulları kimi sahələrdə gördüyünüz işlər, fikrimcə, region və bütövlükdə dünya üçün nümunəvidir. Siz ehtiyatlarınızdan lazımi şəkildə istifadə etməyi bacardınız. Neft və qazdan inkişaf layihələri üçün ən yaxşı şəkildə istifadə etdiniz. Bizim də Fransada eyni planlarımız vardır... Gələcək üçün hansı perspektivli sahəni müəyyən etməliyik, o sahələrdə ki, Fransa liderə çevrilsin. Biz "Fransa-34" sənayeləşmə planını tərtib etmişik. Onları dost ölkələrlə birgə həyata keçirmək fikrindəyik. Bundan başqa, Azərbaycan kimi, böyük inkişafda olan ölkələrlə uzunmüddətli tərəfdaşlıq qurmalıyıq. Bu işlə məhz bu gün məşğuluq, yəni uzunmüddətli strategiyanı müəyyən edirik". Avropada enerji daşıyıcıları ehtiyatları bir çox ölkələrdə ya yoxdur və yaxud da çox məhduddur, ona görə də bu ölkələr özlərinə həmin sahədə etibarlı təhlükəsizliklərini təmin edəcək tərəfdaş axtarırlar. Azərbaycan bu keyfiyyətli münasibətləri artıq təsdiq edib. Ötən dövr sübut edib ki, enerji sahəsində Azərbaycanla əməkdaşlığın perspektivi çox müsbətdir. Göründüyü kimi, Azərbaycanda neft-qaz sahəsinin inkişafı potensialı çox yüksəkdir. Çoxşaxəli boru kəmərləri var, fasiləsiz və təhlükəsiz nəqli təmin edir. Azərbaycan dost ölkələrin gələcək və onilliklər üçün enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamaq əzmindədir.



Azərbaycanın Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaşa, Avrasiya məkanında mühüm tranzit və investisiya yatırılması üçün cəlbedici ölkəyə çevrilməsi, ölkənin dünya iqtisadiyyatına uğurla inteqrasiya etməsinə çox güclü zəmin yaradır. Dünya təsisatları və ölkələri ilə əməkdaşlığın daim genişlənməsi və dərinləşməsi sosial-iqtisadi inkişafa yeni, güclü stimul verməklə yanaşı, ölkənin siyasi nüfuzunu da artırır. Bu isə öz növbəsində həmin regionda beynəlxalq sülhün, sabitliyin qorunmasına lazımi töhfəni verir, dinc yanaşı yaşamanı və sosial rifahı təmin edir. Azərbaycanın uğurlu beynəlxalq siyasi və iqtisadi əməkdaşlığı dövlətin imicini daim yüksəldir. Bu sabit, davamlı inkişaf və qarşılıqlı mənafeyə əsaslanan əlaqələr isə ölkəmizə dünyada etimadı möhkəmləndirir. Artıq bir neçə ildir ki, Azərbaycanın ən islahatçı və iqtisadi baxımdan inkişaf edən ölkə olması nüfuzlu beynəlxalq qurumlar, həm də inkişaf etmiş dövlətlərin başçıları tərəfindən də etiraf edilir.

İqtisadi qüdrət siyasi müstəqilliyin də əsasıdır. Fransa prezidentinin bu sözləri həmin amili bir daha təsdiqləyir: "Birinci sahə enerji sahəsidir. Azərbaycan həm iqtisadi, həm də siyasi baxımdan strateji rol oynayır".

Azərbaycanın düşünülmüş siyasətə əsasən konkret iqtisadi proqramlar və mütərəqqi islahatlarla fəaliyyəti hazırkı şəraitdə ən doğru yola getdiyimizi göstərir. Məhz bu səbəbdən Azərbaycan regionda innovativ inkişaf edən dövlət və beynəlxalq investisiyaların yönəldilməsi üçün ən cəlbedici ölkə səviyyəsini qazanıb. Ölkənin siyasi-iqtisadi əlaqələri getdikcə genişlənir. Əməkdaşlıqda qarşılıqlı səmərəni gözləməyə üstünlük vermək, dünya iqtisadiyyatına inteqrasiyada geosiyasi məkanın üstünlüklərindən bacarıqla istifadə etmək, daim ölkəyə böyük siyasi-iqtisadi dividendlər gətirir və ona strateji mövqe qazandırır. Müasir qloballaşma prosesi daim irəlini görməyi, düzgün proqnozlaşdırmanı, elm və texnologiyanı inkişaf etdirməyi, bu sahədə beynəlxalq əməkdaşlıqdan effektli istifadə etməyi və iqtisadiyyatı da dayanıqlılığa, sabit inkişafa nail olmağı tələb edir. Ölkəmiz bu keyfiyyəti özündə ehtiva edən kursla irəliləyir.

Azərbaycan regionun qüdrətli və nüfuzlu dövləti kimi yüksəlişdə olduğunu, göründüyü kimi, inkişaf etmiş dövlətlərin rəhbərləri və nüfuzlu beynəlxalq qurumlar da təsdiq edirlər. Lakin bu tərəqqi son hədd deyil və ölkə böyük inamla hər il daha yüksək mərhələyə qədəm qoyur, mühüm və nəhəng iqtisadi layihələr icra edilir, Azərbaycan beynəlxalq iqtisadiyyatda öz layiqli yerini tutur. Hazırda ölkə iri qaz ixracatçısına çevrilir. Digər tərəfdən, prioritet elan olunmuş qeyri-neft sektoru da çox sürətlə inkişaf edir. İqtisadiyyatın bu hərtərəfli irəliləyişi ölkəni sıçrayışlı inkişaf yoluna çıxarıb.

Prezident İlham Əliyev Azərbaycan-Fransa biznes forumundakı çıxışında deyib: "Azərbaycanda görüləsi işlər çoxdur, infrastruktur layihələri bizim üçün prioritet təşkil edir. Eyni zamanda, ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Postsovet məkanında birbaşa sərmayələrin həcminə görə Azərbaycan birinci yerdədir. Son on il ərzində ölkə iqtisadiyyatına 150 milyard dollar sərmayə qoyulmuşdur. Təkcə keçən il 25 milyard dollardan çox sərmayə yatırılmışdır. Onlardan 30 faizi xarici sərmayədir. Sevindirici haldır ki, xarici şirkətlər təkcə neft-qaz sektoruna deyil, qeyri-neft sektoruna da öz investisiyalarını qoyurlar. Yəni Azərbaycanın uzunmüddətli inkişafına böyük inam vardır... Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir. Deyə bilərəm ki, son on il ərzində dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyat Azərbaycan iqtisadiyyatı olmuşdur... Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyi artır". Azərbaycanın yerləşdiyi regionda davamlı sosial-iqtisadi inkişafa mühüm töhfələr verməsi, regional təhlükəsizlikdə və beynəlxalq iqtisadi inteqrasiyada oynadığı rolun əhəmiyyəti daim artır.

Bu gün Azərbaycan Avrasiya məkanında transmilli layihələrin reallaşdırılmasında həm lider dövlətə, həm də təhlükəsizliyin qarantına və səmərəli beynəlxalq əməkdaşlığın təminatçısına çevrilib.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**